**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**

*Əlyazması hüququnda*

**RƏŞAD FİRİDUN OĞLU AĞAZADƏ**

# AZƏRBAYCANIN XARİCİ SİYASƏTİNDƏ İCTİMAİ ƏLAQƏLƏRİN VƏ XALQ DİPLOMATİYASININ ROLU

**İxtisas: 5901.01 – “Beynəlxalq münasibətlər”**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI -2015**

İş Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının «Beynəlxalq münasibətlər və xarici siyasət» kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor
**N.A. Axundov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor
**M.C. Qasımlı**

siyasi elmlər üzrə fəlsəfə doktoru
**M.M. Əliyeva**

**Aparıcı təşkilat:** AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun "Beynəlxalq münasibətlər və beynəlxalq hüquq şöbəsi"

Müdafiə "_26___" __05__ 2015-ci il, saat ______-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdindəki FD.02.101 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ1001, Bakı şəhəri, Lermontov küçəsi, 74.

Dissertasiya işi ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "___" ________ 2015-ci ildə göndərilmişdir.

**FD.02.101 Dissertasiya Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent** **S.İ.Məmmədova**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı.** Müasir dövrdə diplomatiya köklü dəyişikliklərə məruz qaldığı bir vaxtda artıq diplomatik sfera yalnız dövlətlərin preroqativi olmaqdan çıxır və beynəlxalq arenada müvəffəqiyyət bir çox hallarda dövlət və qeyri-dövlət strukturlarının birgə səylərindən asılı olur. Vaxtilə daha çox ayrı-ayrı hökümətlər səviyyəsində həyata keçirilən birtərəfli proses olan diplomatiya, hazırda, özünü getdikcə daha çox ictimai rəyin mühüm rol oynadığı çoxtərəfli fəaliyyət növü kimi büruzə verir. Belə bir fəaliyyət isə praktiki olaraq ictimai dəstək olmadan tam müvəffəqiyyət qazana bilmir.

"İnformasiya partlayışı" və "ictimai əlaqələrin" sürətlə inkişafı beynəlxalq münasibətlər sahəsindən də yan keçməmişdir. Bu gün demək olar ki, bütün ölkələrin xarici işlər nazirlikləri ictimai diplomatiya ilə məşğul olur, bu işdə kütləvi informasiya vasitələri ilə birlikdə hərəkət edir və ən yeni texnologiyalardan istifadə edirlər. Bu mövzunun beynəlxalq əlaqələr üzrə mütəxəssislər üçün böyük əhəmiyyəti var.

Təsadüfi deyil ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XİN-in əməkdaşları və xaricdəki Azərbaycan səfirləri, diplomatik nümayəndəliklərin başçıları ilə görüşü zamanı, demişdir: "Azərbaycan öz xarici siyasətini çox uğurla həyata keçirir. Əlbəttə, bu gün Azərbaycan diplomatiyası yeni bir mərhələdədir... Bu gün Azərbaycan haqqında dünyada kifayət qədər ədalətli məlumatlar var. Biz hamımız çalışmalıyıq, əlbəttə, ilk növbədə, Azərbaycanı xaricdə təmsil edən səfirlər, səfirliklərin digər işçiləri çalışmalıdırlar ki, Azərbaycan haqqında reallıqlar o ölkələrdə yaşayan ictimaiyyətə çatdırılsın."[1]

Azərbaycanın dövlət başçısının ölkənin xarici siyasətinin uzunmüddətli strategiyasına xidmət edən bu çağırışı ictimai diplomatik fəallığı xeyli artırmışdır. Dünya Azərbaycanlılarının ardıcıl və davamlı keçirilmiş qurultaylarından sonra xaricdə yaşayan soydaşlarımızın təşkilatlanması prosesi daha böyük vüsət almışdır. Onların yaşadıqları ölkələrin ictimai-siyasi həyatında iştirak səviyyəsi yüksəlmiş, bu ölkələrdə mədəni irsimizin təbliği, digər xalqların, xüsusilə türk diasporları ilə əlaqələrin inkişafı istiqamətində canlanma əldə olunmuşdur.

Xalq diplomatiyasının hədəfi (audutoriyası) həm xarici ölkələrin hökuməti və elitası, həm də geniş ictimaiyyət, kütləvi informasiya vasitələri, mədəniyyət, incəsənət xadimləri və yetişməkdə olan yeni nəsildir. İctimai

---

[1] Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin birinci müşavirəsində Prezident İlham Əliyevin nitqi, 27 iyul, 2004// www.mfa.gov.az

diplomatiyanın məqsədi ölkənin müsbət imicinin yaradılmasına xidmət edən əlaqələr qurmaq üçün beynəlxalq ictimaiyyəti məlumatlandırmaq, digər xalqlarla təhsil və mədəniyyət sahəsində əlaqələr qurmaqdır.

Xarici ölkə vətəndaşlarının stereotip və yanlış təsəvvürləri xarici siyasətin həyata keçirilməsində çətinliklər yaradır. Ona görə də, xalq diplomatiyasının əsas vəzifələrindən biri xarici kütləvi informasiya vasitələrində dövlət və millət haqqında obyektiv və əlverişli rəy yaratmaqdır. Xalq diplomatiyası öz ölkəsilə xarici ölkə vətəndaşları arasında dialoqu genişləndirmək məqsədi daşıyır. Fəal beynəlxalq mübadilə, informasiya proqramlarının yaradılması, öz mədəni dəyərlərinin təbliği işini əhatə edir. Bütün bu vasitələrin dünya ölkələrinin xarici siyasətinin həyata keçirilməsində müvəffəqiyyətlə istifadəsini öyrənmək və Azərbaycanın xarici siyasətində tətbiqi imkanlarını araşdırmaq baxımından mövzunun öyrənilməsi daha da aktual əhəmiyyət kəsb edir.

Yuxarıda ayrı-ayrılıqda toxunulan səbəbləri ümumiləşdirərək **mövzunun aktuallığını** aşağıdakı müddəalarda ifadə etmək olar:

- İctimai diplomatiyanın dünya ölkələrinin xarici siyasətində tətbiqi təcrübəsinin öyrənilməsi elmi maraq doğurmaqla praktiki əhəmiyyət kəsb edir;
- Qloballaşan dünyada Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində xalq diplomatiyasının fəaliyyətini gücləndirməyin Azərbyacana hansı üstünlüklər verə biləcəyinin araşdırılması olduqca əhəmiyyətlidir;
- İnformasiya inqilabı, ictimaiyyətlə əlaqələr elminin inkişafı, vahid ümumdünya informasiya cəmiyyətinin yaranmasının dövlətlərarası münasibətlərdə yeni forma və metodların təzahürünə səbəb olması xarici siyasətdə modifikasiyalara səbəb olur ki, onların da baxılan problem kontekstində araşdırılması müasir siyasi elm üçün aktualdır.
- Qeyri-hökumət təşkilatları, işgüzar və akademik dairələr, mədəniyyət, elm, təhsil və incəsənət xadimlərinin getdikcə daha çox cəlb olunduğu dövlətlərarası münasibətlərdə xalq diplomatiyasının tətbiqi və onun imkanlarının öyrənilməsi dövlətin xarici siyasət fəaliyyətinin səmərəliliyinin artırılması baxımından nəzəri və praktiki maraq doğurur;
- Nəhayət, mövzunun öyrənilməsini Azərbaycan siyasi elmi üçün aktual edən əsas məsələ xarici siyasətimizin qarşımızda duran ən ümdə vəzifələrdən olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında istifadə üçün dünya ölkələrinin xalq diplomatiyasından istifadə təcrübəsinin öyrənilməsi və tətbiqi imkanlarının araşdırılmasıdır.

Bütün bunlar bir daha ictimai diplomatiyanın XXI yüzillikdə beynəlxalq arenada əhəmiyyətli təsir imkanlarını təsdiq edir və bu mövzunun elmi cəhətdən araşdırılmasının labüdlüyünü sübuta yetirir.

**Problemin işlənmə dərəcəsi.** Mövzunun kifayət qədər yeni olduğunu nəzərə alsaq, demək olar ki, Azərbaycan siyasi elmi ədəbiyyatında bu problem işlənilməmişdir. Elmi ədəbiyyatla tanışlıq belə bir qənaətə gəlməyə əsas verir ki, bu problemlə bağlı elmi məqalələr də az dərc olunmuşdur.

Tədqiqat işində istinad olunan ədəbiyyat siyahısında, ilk növbədə, xüsusilə illik ənənəvi müşavirə materiallarını qeyd etmək vacibdir.[1] Bu müşavirələrdə cənab İlham Əliyev Azərbaycan xarici siyasətinin prioritet istiqamətlərini müəyyənləşdirməklə yanaşı, bu məqsədlərə çatmaq üçün ictimaiyyətlə əlaqələrin, bütövlükdə ictimai diplomatiyanın oynayacağı rolu fərqləndirmiş, ona xaricdəki nümayəndəlik orqanlarının, eləcə də daimi və müvəqqəti missiyaların fəaliyyətində xüsusi önəm verilməsini tapşırmışdır.

İkinci və tədqiqat işinin elmi-nəzəri, konseptual əsasını təşkil edən ən əsas qrupa isə mövzu ilə bağlı xarici mütəxəssislərin elmi əsərlərini aid edə bilərik. Bu sıraya kütləvi və siyasi kommunikasiyalar, ictimaiyyətlə əlaqələr, ümumi informasiya təsiri nəzəriyyələrinin inkişafına töhfəsini vermiş Poçeptsov Q., Diplicenskiy Q., Jozef Nay, Krutskix İ., Kramarenko Q., Baqirov A., Baluyev D.Q., Kaşlev Yu., Qalumov E., Panarin İ. N., J. Qreqori Peyn, Jaki L'Etanq kimi xarici alim və tədqiqatçılar – tarixçilər, politoloqlar, filosoflar, sosioloqlar və nəzəriyyəçilərin elmi işləri daxildir.[2] Məsələn, Jaki L'Etanq "Qloballaşan dünyada ictimai əlaqələr və diplomatiya: ictimai kommunikasiya" adlı işində ictimai əlaqələrin müxtəlif formalarını və perspektivlərini, onun keçmişini, bu gününü, gələcəyini araşdırır, onun

---

[1] Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin müşavirə (ikinci) materialları. 14 avqust 2006, Xalq qəzeti; Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin birinci müşavirəsində Prezident İlham Əliyevin nitqi, (27 iyul 2004)// www.mfa.gov.az

[2] Почепцов Г.Г., Паблик рилейшнз или Как успешно управлять общественным мнением, М., 1998, 192 с.; Почепцов Г. Г., Паблик рилейшнз для профессионалов, М., 2000, 622 с.; Дипличенский Г., Политика и общественное мнение в Росии, // Международная экономика и международная жизнь, , №10, 2001, стр. 46; J. S. Nye, Jr., "Soft Power", // Foreign Policy, No 80, Fall 1990, p. 153-171; NYE, J. (2010): Soft power and public diplomacy in the 21st century. - [s.l.]: British Council, 20 January. - 21 p. - (CE6537); Крутских И., Крамаренко Г., Дипломатия и информационно- коммуникационная революция, // Международная жизнь, №7, 2003, стр. 102-113; Багиров А., Новые информационные технологии в международных отношениях, // Международная жизнь, №8, 2001, стр. 90-115; və b.

effektiv ictimai diplomatiyaya necə töhfə verə biləcəyini, eləcə də onun qlobalizasiya və millət quruculuğu ilə əlaqələrini təhlil edir.[1]

J.Qreqori Peyn adlı tədqiqatçı isə deyir ki, ictimai əlaqələr diplomatiyaya müxtəlif yollarla təsir göstərir: "İctimai əlaqələr ictimai diplomatiyanın beynəlxalq kommunikasiya və media əlaqələri, eləcə də mədəniyyət diplomatiyası üçün cavabdeh olan hissəsidir."[2] Fikrimizcə, ictimai əlaqələr və onun cavabdehlik əhatəsi eyni zamanda iqtisadi, təhsil, sosial və ictimai sferalara aid olunmalıdır və qarşılıqlı şəxsi münasibətlərdə də dəstəklənməlidir.

Jozef Nay adlı tədqiqatçı "yumşaq gücə" fikirlər qarşıdurmasında qalib gəlmək üçün bir məşq kimi yanaşır. Bu termini, "yumşaq güc" – "soft power" anlayışını da məhz Jozef Nay 1990-cı ildə çap etdirdiyi kitabında təqdim etmişdir: "Yumşaq güc ölkənin mədəniyyəti, dəyərləri və siyasətinə əsaslanır". [3] Fikrimizcə, bu istiqamətdə uğurla həyata keçirilən ictimai diplomatiya xarici siyasət sferasında "diplomatik PR (ictimai əlaqələr)"in təşəkkül tapmasına və aktiv istifadəsinə əsaslanmalıdır. "Diplomatik ictimai əlaqələr" dedikdə, diplomatiyada istifadə olunan, xarici siyasət vəzifələrini həyata keçirməyə yönəlmiş ictimaiyyətlə əlaqələrin tətbiqi mexanizmləri nəzərdə tutulur. Buraya diplomatların xarici ölkə vətəndaşlarına, ictimai-siyasi xadimlərinə, ümumiyyətlə xarici auditoriyaya istiqamətlənmiş qarşılıqılı təbliğat və təşviqat fəaliyyətini aid etmək olar.

Üçüncü qrup kimi, beynəlxalq arenada, müasir geostrateji mühitdə, beynəlxalq münasibətlər sistemində hazırkı qloballaşan dünyada dövlətin imici və diplomatiya məsələrində fikir və mülahizələrini geniş ictimaiyyətə çatdıran tanınmış yerli və xarici siyasətçilərin, tarixçilərin, diplomatların əsərləri və nəşrlərini göstərə bilərik. Bu sıraya yerli müəlliflərdən R. Mehdiyevin, Ə. Həsənovun, H. Paşayevin, E. Məmmədyarovun, N. Məmmədovun, H. B. Məmmədovun, E. Nəsirovun, Ç. Məmmədəlizadənin, R. İsmayılovun nəşrlərini, xarici müəlliflərdən T. L. Yakobsonu, Y. Vanqı, S. Bleki, D. V. Korneevi, Siqnitzer və T. Kumbsu, S.M. Tuçkovu, Xeyvudu, C.

---

[1] ETANG, J. L' (2009): Public relations and diplomacy in a globalized world: an issue of public communication, in: AMERICAN BEHAVIORAL SCIENTIST, 53(4) December: 607-626. (CE6235)

[2] Payne, J. Gregory, Editor, American Behavioral Scientist, Trends in Global Public Relations and Grass Roots Diplomacy, volume 53, number 4, December 2009, pp. 487-492

[3] Joseph S. Nye, Jr., "Soft Power", // Foreign Policy, No 80, Fall 1990, p. 153-171

K. Fitzpatriki, L. Edvard Berneyzi, Skot Katlipi, Yan Melisseni aid edə bilərik.[1]

Strateji informasiya sahəsində qazandığımız uğurlar sırasında akademik Ramiz Mehdiyevin 2010-cu ilin sonunda nəşr olunan "Gorus-2010: absurd teatrı mövsümü" əsərini xüsusi qeyd etmək lazımdır. Bu əsər informasiya müharibəsində erməni təbliğatına sarsıdıcı zərbədir. Müəllif, Ermənistan-Azərbaycan münaqişəsinin danışıqlar yolu ilə tənzimlənməsi prosesində Ermənistan rəhbərlərinin dünya ictimaiyyətini çaşdırmaq cəhdlərini elmi əsaslarla və ustalıqla ifşa edib.[2]

Xarici müəlliflər arasında diqqətimizi daha çox çəkən ictimai diplomatiya sahəsində beynəlxalq ekspert sayılan, Clingendael diplomatiya məktəbinin yaradıcılarından olan Prof. Yan Melissenin fikirləri maraq doğurur. "Yeni ictimai diplomatiyadan sonra" adlı nəşrdə Yan Melissen ictimai diplomatiya və ənənəvi diplomatiyanın hələ də "birgə mövcudluğunu" qeyd edir, XXI əsrdə beynəlxalq münasibətlərdə qeyri-dövlət aktorlarının ictimai diplomatiya proseslərində getdikcə daha çox

---

[1] Mehdiyev R. Gorus-2010: absurd teatrı mövsümü, Bakı, "Şərq-Qərb", 2010, 96 s.; Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-96), Bakı: Elm, 2000; Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti, Bakı: Elm, 2005, 751 s.; Məmmədov N. Azərbaycanın xarici siyasətinin əsas istiqamətləri haqqında, SAM, (Strateji Araşdırmalar Mərkəzi) Azerbaijan Focus- jurnalı, N2, 2010, 205 s.; H.B. Məmmədov, Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu, Bakı, 2009, 328 səh.; H.B. Məmmədov, Dünya siyasəti və beynəlxalq münasibətlər, Bakı 2012, 371 səh.; Nəsirov E., ABŞ və dünya: 11 sentyabr terror aktlarından sonra. Bakı, 2003, 262 s.ı Мамедализаде Ч, Основы дипломатический службы и дипломатического протокола, Баку, 2004, 400 с.; *İsmayılov R., Public Relations - ictimaiyyətlə əlaqələr, // «Yeni Nəsil» Jurnalistlər Birliyi, Bakı, 2001, 168 s.;* Jacobson, T. L., & Jang, W. Y., Mediated war, peace, and global civil society, in B. Mody (Ed.), International and development communication, 2003, pp. 53-68, Thousand Oaks, CA: Sage Publication.); Wang J., Managing national reputation and international relations in the global era: Public diplomacy revisited, // Public Relations Review, 2006, 32 (2), p. 91-96.; Блек С., Паблик Рилейшнз, Что это такое? Москва, 1999, 239 с.; Black Sam, Introduction to Public Relations, London: Modino Press, 1989, 236 p., və b.

[2] Yenə orada, 96 s.

təşəbbüskar olduqlarını nəzərə çatdırmaqla bərabər dövlətin iştirakı olmadan ictimai diplomatiya aktının həyata keçirilmədiyi qənaətinə gəlir.[1]

Azərbaycan Respublikasının xarici siyasətində ictimai əlaqələrin və xalq diplomatiyasının (ictimai diplomatiyanın) rolu, ictimai diplomatiyanın xüsusiyyətləri, beynəlxalq ictimai əlaqələrin inkişaf xüsusiyyətləri isə dissertasiya və ya monoqrafiya səviyyəli tədqiqatların mövzusu olmamışdır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini müasir dövrümüzdə dövlətlərin xarici siyasətində ictimai əlaqələr və xalq diplomatiyasının tətbiqi prosesləri təşkil edir.

Tədqiqatın predmetini isə ictimai diplomatiyanın dövlətin beynəlxalq imicinin formalaşması prosesinə təsir mexanizmləri, eləcə də Azərbaycan Respublikasının xarici siyasətinin həyata keçirilməsində ictimai əlaqələr və xalq diplomatiyasının tətbiqi imkanları təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın başlıca məqsədi ictimai əlaqələrin və ictimai diplomatiyanın yaranması və inkişafı mərhələlərini nəzərdən keçirmək, ictimai diplomatiya institunun inkişafında müasir tendensiyaları analiz etmək və əldə olunan nəticələrin Azərbaycanın xarici siyasətində effekiv tətbiq imkanlarını ortaya çıxarmaqdır.

Qarşıya qoyulan əsas məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmiş və həll olunmuşdur:

- ictimai əlaqələrin (Public Relations) əsaslarını, onun yaranması və inkişafını tədqiq etmək, informasiyalı cəmiyyətdə ictimai əlaqələrin əsas funksiyaları, ümumi kommunikasiya vasitəsi kimi xarici siyasətin müxtəlif səviyyələrində tətbiqini araşdırmaq;
- Azərbaycanın xarici siyasətində ictimai əlaqələrin tətbiqi imkanlarını analiz etmək;
- sistemli analiz aparmaq, “ictimai diplomatiya” və “ictimai əlaqələr” anlayışlarının elmi-nəzəri məzmunu açıb göstərmək, dövlətin xarici siyasətində ictimai diplomatiya tətbiqinə konseptual yanaşmaları nəzərdən keçirmək;
- ictimai diplomatiya sahəsində dünya təcrübəsini öyrənərək Azərbaycan Respublikasının xarici siyasətinin formalaşdırılmasında, dövlətin beynəlxalq imicinin yaxşılaşdırılması prosesində ondan effektiv istifadə yollarını müəyyən etmək;
- müasir mərhələdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycan xalq diplomatiyasının imkanlarını üzə çıxarmaq.

---

[1] Melissen, J., Beyond the New Public Diplomacy, The Hague, Netherlands Institute of International Relations Clingendael, Clingendael Papers, No. 3, October, 2011, p. 22

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Tədqiqat işinin nəzəri bazasını ilk növbədə Azərbaycanın Respublikasının beynəlxalq aləmdə yeri və rolunun formalaşması, regiondakı mövqeyinin möhkəmlənməsi, xarici siyasətdə ictimai diplomatiya metodlarından istifadənin təşəbbüskarı olan Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışları, konseptual yanaşmaları, dəyərli fikirləri, eləcə də, problemlə bağlı fundamental əsərlər və burada irəli sürülən müddəalar təşkil edir. Tədqiqatın metodoloji əsasını isə beynəlxalq münasibətlər və siyasi elmlər sahəsində qəbul olunmuş siyasi analiz metodları analiz və sintez, ümumiləşdirmə, tarixilik, müqayisəli və sistemli təhlil, kontent-analiz metodları təşkil edir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Tədqiqat işində müraciət olunmuş aşağıdakı materiallar işin mənbəşünaslıq bazasını təşkil etmişdir və birinci qrup adı ilə elmi ədəbiyyat siyahısına daxil edilmişdir.

- həm Azərbaycan, həm də xarici ölkələrin Xarici İşlər Nazirliklərinin sənədləri və materialları
- XİN-nin bəyənatları, XİN və onun müavinlərinin çıxışları
- konfrans materialları
- Azərbaycan Respublikası Prezidentinin XİN-dəki diplomatik nümayəndəlik başçıları ilə keçirdiyi ənənəvi illik müşavirələrdən çıxışlar və müşavirə materialları,
- müvafiq internet resursları (Azərbaycan Respublikası Prezidentinin, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, eləcə də Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin rəsmi saytları)
- Hollandiyanın Qroningen Universitetinin Beynəlxalq münasibətlər fakültəsinin zəngin kitabxanası, Haaqada yerləşən Clingendael Diplomatiya Məktəbinin kitabxana resursları, Azərbaycan Diplomatik Akademiyasının kitabxana və internet resursları, ADA-da konfranslara, mühazirələrə dəvət almış yerli və əcnəbi dövlət və ictimai xadimlərin mülahizə və fikirləri.[1]

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın başlıca elmi yeniliyi ondan ibarətdir ki, dissertasiya işində müraciət olunan mövzu həm dövlət, həm də qeyri-hökümət təşkilatları səviyyəsində geniş elmi maraq doğurmasına baxmayaraq, bu mövzu Azərbaycan siyasi elmi ədəbiyyatında xüsusi tədqiqat obyekti və predmeti olmamışdır. Bu baxımdan dissertasiya işində aparılan araşdırmalar bütövlükdə elmi yenilik kimi qiymətləndirilə bilər. Tədqiqatın elmi yenilikləri aşağıdakı konkret müddəalarda öz əksini tapmışdır:

---

[1] MELISSEN, J. (2005): The new public diplomacy: between theory and practice, in: J. Melissen [ed.]: The new public diplomacy: soft power in international relations. - Basingstoke [etc.]: Palgrave Macmillan: 3-27 (B-R 161)

- dissertasiya işində ictimai əlaqələr (Public Relations) fenomeninin tarixi-genetik analizi aparılmış, xarici siyasətdə onun tətbiqi metod və mexanizmləri tədqiq olunmuşdur;
- "xalq diplomatiyası", "ictimai diplomatiya" (Public Diplomacy), "dövlətin beynəlxalq imici" kimi anlayışların elmi-nəzəri tərkibinin politoloji tədqiqi aparılmış, beynəlxalq təcrübəyə istinadən dövlətin xarici siyasətində ictimai diplomatiyanın tətbiqinin metod və prinsipləri analiz edilmişdir;
- tədqiqatda ilk dəfə olaraq Azərbaycanın xarici siyasətində ictimai diplomatiya, xalq diplomatiyasının imkanlarından istifadə etməklə gündəmdə olan xarici siyasət məsələlərinin həlli yolları elmi-nəzəri cəhətdən əsaslandırılmışdır.
- Araşdırmalar zamanı çoxsaylı sənəd və materialların ilk dəfə müəllif tərəfindən elmi dövriyyəyə daxil edilməsi də tədqiqat işinin elmi yeniliyi kimi qiymətləndirilməlidir.

**Dissertasiya işinin nəzəri və praktiki əhəmiyyəti.** Nəzərə alsaq ki, ictimai əlaqələr və xalq diplomatiyası sahəsində Azərbaycanda istinad ediləcək fundamental bütöv bir elmi əsər və araşdırma olmayıb, bu sahənin tədqiq edilməsinin zəruriliyi özünü aydın biruzə verir. İlk növbədə tədqiqat işində, "ictimai əlaqələr", "xalq diplomatiyası", "ictimai diplomatiya" kimi anlayışların nəzəri əhəmiyyətinin elmi və konseptual əsasları aşkara çıxarılır ki, bu da praktiki fəaliyyətdə onların səmərəli tətbiqi üçün şərait yaratmış olur.

İkinci tərəfdən, dissertasiya işinin əsas nəticələri Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində iş üçün faydalı material rolunu oynaya bilər: təhsil məqsədləri ilə istifadə oluna bilər, Azərbaycan Diplomatik Akademiyası Universitetində, Azərbaycan Respublikası Prezidenti yaninda Dövlət İdarəçilik Akademiyasında tədris prosesində, mühazirələrin oxunması, seminar məşğələlərə hazırlıq, tematik elmi-praktik konfranslarda çıxışlar üçün, eləcə də Azərbaycanın xarici siyasətlə bu və ya digər dərəcədə bağlılığı olan müxtəlif dövlət və qeyri-hökümət orqanlarının gündəlik analitik işində istinad olunan bazis rolunu oynaya bilər.

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasının iclasında müzakirə edilərək müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları və nəticələri xaricdə və Azərbaycanda nəşr olunan elmi jurnallarda, doktorant və dissertantların elmi-praktik konfranslarının materiallarında müəllifin dərc etdirdiyi elmi məqalə və tezislərdə öz əksini tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş, 2 fəsil, altı yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **Giriş** hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri müəyyənləşdirilir, problemin işlənmə dərəcəsi, mənbəşünaslıq bazası, nəzəri - metodoloji əsasları, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti göstərilir.

Dissertasiyanın "**Beynəlxalq ictimai əlaqələr ictimai diplomatiya vasitəsi kimi"** adlanan birinci fəsli 3 yarımfəsildən ibarətdir. Birinci yarımfəsil "Xarici siyasətdə ictimai əlaqələrin xüsusiyyətləri və reallaşma vasitələri" adlanır. Burada ictimai əlaqələr anlayışının mahiyyəti açılır, ictimaiyyətlə əlaqələr adlı elmin yaranma tarixi araşdırılır, ictimai əlaqələrin əsas funksiyaları haqqında məlumat verilir. Göstərilir ki, ictimai əlaqələr ətrafla əlverişli münasibətlər yaradılmasına xidmət edir. Çevik ictimai əlaqələr ictimai fikrin tələb olunan müddətdə öyrənilməsi üçün zəruri olduğu vurğulanır. Pablik Rileyşnz – İctimaiyyətlə Əlaqələrin idarəetmə fəaliyyətində mühərrik rolunu oynaması və bu "əbədi mühərrik"in bütün dövrlərin idarəçiləri üçün mühüm əhəmiyyət kəsb etdiyi qeyd olunur.[1]

Göstərilir ki, "ictimai əlaqələr"i proses, sistem və «ardıcıllıq düsturu» kimi izah edən müxtəlif konsepsiyalar var. İdarəetmədə geniş tətbiq olunan bu sxem ictimaiyyətlə əlaqələr üçün də uyğundur. Çünki həmişə müxtəlif problemlərlə qarşılaşan PR mütəxəssisi, optimal həll yolunu axtarıb tapmalı və səmərəli tədbir görməli olur. Bundan əlavə, ümumiyyətlə, «İctimai əlaqələr» kommunikasiyaların idarə edilməsidirsə, onda PR mütəxəssisinin fəaliyyəti idarəetmə nəzəriyyəsinin işləyib hazırladığı qanunauyğunluqlara tabe olmalıdır.[2]

Yarımfəsildə o da vurğulanır ki, beynəlxalq münasibətlərdə, dövlətlərarası əlaqələrdə gözlənilən nəticələri əldə etmək üçün dövlətin təmsil olunduğu ölkə daxilində, eləcə də beynəlxalq müstəvidə ictimai əlaqələri fasiləsiz öyrənmək və pablik rileyşnz fəaliyyətindən faydalanmaq gərəkdir.

Birinci yarımfəsldə ictimai əlaqələrin qısa tarixinə və cəmiyyətdə fəaliyyətinə nəzər saldıqdan sonra aşağıdakı nəticəyə gəlinir:

---

[1] Ağazadə R., Beynəlxalq münasibətlər və Pablik Rileyşnz, Bakı, 2007, s.9

[2] Ağazadə R., Pablik Rileyşnz fəaliyyəti və idarəçilik, "525-ci qəzet", Bakı, 2003, 30 sentyabr

- İctimai əlaqələrin effektiv nəticə verməsi üçün qarşılıqlı etimada əsaslanan cəmiyyət-dövlət, dövlət-cəmiyyət münasibətləri qurulmalıdır
- İctimai əlaqələr işi o zaman müsbət nəticə verə bilər ki, vətəndaş cəmiyyəti tam formalaşma mərhələsini keçmiş olsun
- İctimai əlaqələrin idarəetmə funksiyası, onun sosial, tərbiyəvi, informativ funksiyaları ilə vəhdətdə həyata keçirilməlidir.

Birinci fəslin ikinci yarımfəsli "**Beynəlxalq münasibətlərdə ictimai əlaqələrin və informasiyanın rolu"** adlanır. Burada qeyd olunur ki, hazırda, demək olar ki, bütün dövlətlərin xarici işlər orqanları ictimai diplomatiya ilə məşğul olur, KİV-lərlə qarşılıqlı təsirdə olur, öz fəaliyyətlərində ən müasir informasiya texnologiyalarından istifadə edirlər. [1] O da vurğulanır ki, XXI əsrdə beynəlxalq münasibətlərdə, diplomatiyada ön plana hərbi-siyasi məsələlər, hərbi münaqişələr deyil, daha çox xarici ticarət, maliyyə, ekologiya və informasiya mübadiləsi problemləri çıxır.[2] Burada informasiya əsrinin məhsulu olan informasiya inqilabı və informasiya müharibələrindən bəhs olunur, onların beynəlxalq münasibətlərdə, dövlətlərarası münasibətlərdə oynadığı rol nəzərdən keçirilir, informasiya məkanının xüsusiyyətləri araşdırılır.

Bu yarımfəsildə həm də vurğulanır ki, siyasi idarəetmədə PR siyasi xadimin imicini yaratmağa xidmət edir, əhalidə hakimiyyətə inam yaradır. Bu inamı qazanmaq ictimai əlaqələrin inkişaf etdirilməsini tələb edir. Yaddan çıxartmaq olmaz ki, toplumun nəbzini tutan, onun marağını ifadə edən çağırış kütlələri öz ardınca aparmaq gücünə malikdir.[3]

Yarımfəsildə bu nəticəyə gəlinir ki, müasir diplomatiya üçün beynəlxalq münasibətlərdə yalnız dövlət orqanları, dövlət xadimləri, professional diplomatlar deyil, xalq kütlələrinin də vacib rol oynaması xarakterikdir. Bu həm peşəkar fəaliyyətin və həm də xalq diplomatiyasının əsas elementi kimi qarşıya çıxır. Fikrimizcə, bu dinc vasitələrin əsas özünəməxsus cəhəti onların konstruktivliyi, tərəflərin hüquq və maraqlarına hörməti, siyasətin ümumbəşəri mənəvi normalar ilə birləşdirilməsini əsas tutmasıdır.

Birinci fəslin üçüncü yarımfəsli **"Xarici siyasətdə ictimai diplomatiyanın tətbiqi modelləri: Azərbaycan və Qərb dövlətləri nümunəsi"** adlanır. Burada ictimai əlaqələrin bir diplomatik alət kimi

---

[1] Кашлев Ю., Галумов Э., Информация и PR в международных отношениях, Москва, 2003, стр. 5-11

[2] Кашлев. Ю., Международные отношения в зеркале информационной революции, // Международная жизнь, №1, 2003, стр. 17-38

[3] Почепцов Г.Г., Паблик рилейшнз или Как успешно управлять общественным мнением, М., 1998, стр. 25

istifadəsinə parlaq misal kimi, elə ictimaiyyətlə əlaqələrin bir elm və fəaliyyət sahəsi kimi yarandığı ABŞ-ın xarici siyasət addımları təhlil olunur, Avropa İttifaqının ictimai diplomatiya təcrübəsi araşdırılır. Qeyd olunur ki, ABŞ-da demək olar ki, hər bir xarici siyasət aktı, diplomatik addım əvvəlcədən təşkil olunmuş effektiv PR fəaliyyəti olmadan baş tutmur. Buna misal kimi ABŞ-ın XX əsrin sonu XXI əsrin əvvəllərində apardığı müharibələr misal gətirilir.

Araşdırmalar göstərir ki, informasiyanın müharibələrdəki rolu heç nədən yaranmayıb. ABŞ-da, hələ Birinci Dünya müharibəsi gedərkən müharibədə PR-ın rolunu yaxşı başa düşürdülər. İctimai İnformasiya Komitələrinin yaradılması Amerika cəmiyyətinin ictimai rəyini idarə etmək və istiqamətləndirmək üçün edilən ilk cəhd idi. İctimai rəy Avropada gedən müharibəyə qoşulmaq qərarına razılıq verməliydi.[1]

"Səhrada fırtına" əməliyyatlarından və Moqadişodakı hadisələrdən sonra ABŞ Müdafiə Departamenti qərara gəldi ki, suallara "No comment!" ("Şərhsiz") cavabı vermək düzgün addım deyil. Beləliklə, Əfqanıstan müharibəsindən başlayaraq hərbi əməliyyatlar barədə tez-tez mətbuata və ictimaiyyətə açıqlamalar verilməyə başlandı.[2]

Hal-hazırda ABŞ-da hər il PR kampaniyalar üçün 2 mlrd dollardan çox vəsait ayrılır, baxmayaraq ki, əvvəllər bu fəaliyyətə pul xərclənmirdi.

Yarımfəsildə qeyd olunur ki, yeni əsrin bu müharibələri, əlbəttə, informasiya və kommunikasiya sahələrində aparılır. İnternetin artan rolu bunun informasiya müharibəsi olduğunu sübut edir".[3]

II fəsil **"Müstəqil Azərbaycanın xarici siyasətində xalq diplomatiyasının tətbiqi"** adlanır və 3 yarımfəslə bölünür.

Birinci yarımfəsil **"Azərbaycanın xarici siyasətində ictimai əlaqələrin qurulmasında xalq diplomatiyasının rolu"** adlanır. Yarımfəsildə göstərilir ki, beynəlxalq səviyyələrdə dövlətin siyasi mövqeyinin düzgün və ağıllı təqdim edilməsi, ölkənin elm, mədəniyyət, incəsənət və idman nailiyyətlərinin təbliği, təbii sərvətlərinin, iqtisadi imkanlarının, siyasi sabitliyin nümayişi siyasi və iqtisadi məsələlərin həlli üçün əlverişli zəmin yaradır. İndiki dövrdə müəyyən şəraitdə xalq diplomatiyası iqtisadi

---

[1] Bruce Berkowitz, The new face of war, New-York, 2003, p. 45

[2] Бушев А.Б, Риторический анализ паблик рилейшнз пентагона при освещении военной операции в Ираке"актуальные проблемы теории коммуникации", Тверь, Россия, 2004, стр. 282

[3] Панарин И.Н., Информационная война и мир, 2003, стр. 19-20

sanksiyalar, yaxud siyasi və hərbi aksiyalardan daha güclü təsir vasitəsi ola bilər.[1]

Yarımfəsildə Azərbaycanın diplomatik əlaqələr qurduğu ölkələrdə ölkəmiz haqda ictimai və ədalətli fikir formalaşdırmaq üçün geniş tədbirlər görüldüyü vurğulanır. Prezident İlham Əliyev qeyd etdiyi kimi, "Biz dünya birliyinə inteqrasiya edirik, eyni zamanda, öz siyasətimizi milli maraqlar üzərində, dərin tarixi və mədəni əsaslar üzərində qururuq. Azərbaycanın xarici siyasəti çox açıqdır, aydındır".[2] Aydındır ki, bu tədbirlərin təşkilində ölkəmizin diaspor təşkilatları böyük rol oynayır. Azərbaycanla digər ölkələrin tərəfdaşlıq münasibətlərinin inkişafında diasporun rolu mövzusunda keçirilən ənənəvi konfranslar ölkəmizin xarici siyasətində ictimai əlaqələrə nə qədər əhəmiyyət verildiyini açıq göstərir. Bu sırada 2008-ci ilin oktyabrında Vaşinqtonda "Azərbaycan–ABŞ strateji tərəfdaşlıq münasibətlərinin inkişafında diasporun rolu" mövzusunda keçirilən ikigünlük konfrans mühüm mövzulara toxunmuşdur.[3]

İkinci yarımfəsil "**Müasir Azərbaycanda QHT-lərin və diaspora fəaliyyətində xalq diplomatiyası elementləri"** adlanır. İctimai diplomatiya və ya xalq diplomatiyası ölkənin müsbət imicinin yaradılmasına xidmət edən əlaqələr qurmaq üçün beynəlxalq ictimaiyyəti məlumatlandırma, digər xalqlarla təhsil, humanitar və mədəniyyət sahəsində əlaqələr qurmaqdır. Xarici siyasətin əsas istiqamətlərindən olan iqtisadi meyar üzrə XİN-in davamlı fəaliyyəti nəticəsində Azərbaycanın iqtisadi potensialını və işgüzar mühitini, azad biznesin inkişafı üçün yaradılmış əlverişli şəraiti nümayiş etdirən investisiya və biznes forumları keçirilir, habelə xarici ölkələrin hökumət və özəl sektorunun nümayəndələrinin ölkəmizə səfərləri təşkil edilir. Yarımfəsildə vurğulanır ki, Diasporla İş üzrə Dövlət Komitəsi və ABŞ-da, habelə digər ölkələrdə fəaliyyət göstərən Diaspor təşkilatları ölkəmizin xarici siyasətini müvafiq ölkələrdə təbliğ etmək üçün ictimaiyyətlə əlaqələr təcrübəsindən geniş istifadə edirlər.

Qeyd olunur ki, dünyanın aparıcı ölkələri ilə Azərbaycanın çox səmərəli münasibətləri, bir tərəfdən, əlbəttə ki, Azərbaycanın önəmindən xəbər verir, digər tərəfdən, şübhəsiz ki, Azərbaycanın düşünülmüş xarici siyasət prinsiplərindən irəli gəlir. Qonşu ölkələrlə Azərbaycanın münasibətləri son illər ərzində daha da möhkəmlənibdir. Qonşu dövlətlərlə münasibətlər

---

[1] Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin müşavirə (ikinci) materialları. 14 avqust 2006, Xalq qəzeti

[2] Prezident İlham Əliyevin 28 May Respublika Gününə həsr olunmuş rəsmi qəbulda nitqi//"Diplomatiya aləmi" jurnalı, No 23, 2009, s. 15-18

[3] "Azərbaycan" qəzeti, 1-2 oktyabr 2008

ölkəmiz üçün həmişə prioritet xarakter daşıyıb və siyasi, iqtisadi, mədəni sahələrdə əlaqələr daha da möhkəmlənir. İctimai əlaqələrin geniş spektri yaranır. Nəzərə alınsa ki, ölkəmizi qonşu dövlətlərlə çox sıx iqtisadi əlaqələr bağlayır, onda görərik ki, Azərbaycanın hərtərəfli inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmli və zəruridir."[1]

Yarımfəsildə bu istiqamətdə Heydər Əliyev Fondunun humanitar siyasət fəaliyyəti xüsusilə qeyd olunur. Heydər Əliyev Fondu Azərbaycan mədəniyyətini geniş təbliğ etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılmasına yardımçı olmaq, ölkə həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq, xarici ölkələrin təhsil müəssisələri, QHT-ləri və digər fond və təşkilatları ilə əməkdaşlığı inkişaf etdirmək, beynəlxalq konfranslar və seminarlar təşkil etmək, elmi və təhsil mübadilələri aparmaq və sair kimi əhəmiyyətli məqsədlər də daşıyır.

Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin üçüncü müşavirəsində xarici siyasətdə ictimai rəyin rolu və ictimai əlaqələrin əhəmiyyətindən danışan Prezident İlham Əliyev demişdir: "...Səfirlər bütün dövlət, hökumət qurumları ilə sıx əlaqə saxlamalıdırlar, Azərbaycan həqiqətlərini onlara çatdırmalıdırlar, ictimai qurumlarla fəaliyyəti gücləndirməlidirlər, xaricdə yaşayan Azərbaycan icmaları ilə daha da sıx əlaqə saxlamalıdırlar. Mən hesab edirəm ki, bu istiqamətdə son illər ərzində çox böyük işlər görülübdür. Demək olar ki, azərbaycanlıların yaşadıqları bütün ölkələrdə bizim diaspor strukturlarımız formalaşıb və güclənir. Bu, həm orada yaşayan azərbaycanlılar üçün böyük fayda gətirir, həm də ki, Azərbaycanın siyasətinə böyük dəstəkdir.[2]

Həmin fəslin **üçüncü yarımfəsli "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində xalq diplomatiyasının imkanları"** adlanır.

Bu yarımfəsildə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixinə qısa ekskurs olunur və münaqişənin həlli istiqamətində xalq diplomatiyasının verə biləcəyi imkanlar tədqiq olunur.

Qeyd olunur ki, 1991-ci ilin sonlarında SSRİ-nin dağılması ilə keçmiş sovet məkanında yeni geosiyasi şərait yarandı. Ermənistan, faktiki olaraq, Azərbaycana qarşı açıq və ədalətsiz müharibəyə başladı. Ermənistanın hərbi birləşmələri Azərbaycanın sərhədlərini pozub Qarabağa daxil oldular və

---

[1] Xarici İşlər Nazirliyində Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin müşavirə (ikinci) materialları. 14 avqust 2006, Xalq qəzeti

[2] Azərbaycan Respublikasının diplomatik xidmət orqanları rəhbərlərinin birinci müşavirəsində Prezident İlham Əliyevin nitqi, (27 iyul 2004)// www.mfa.gov.az

Dağlıq Qarabağın erməni separatçıları-terrorçuları ilə birləşərək Azərbaycan torpaqlarının işğalına başladılar. Hazırda Azərbaycan ərazisinin 20%-dən çox (17 min km$^2$) hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.[1]

Yarımfəsildə vurğulanır ki, münaqişənin həlli prosesinə gəldikdə, Azərbaycan Respublikası hər zaman danışıqlara hazır olduğunu bildirmiş, sülh yolu ilə problemin həllinə doğru addımlar atmış, lakin Ermənistanın qeyri-konstruktiv mövqe nümayiş etdirməsi ilə nəticə hasil olmamışdır. BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası hal-hazırda işğalçılıq siyasətini davam etdirməkdədir.

Yarımfəsildə qeyd olunur ki, Xarici işlər naziri Elmar Məmmədyarov Azərbaycan Respublikasının Diplomatik Xidmətinin 90-cı ildönümünə həsr olunmuş "Azərbaycanın xarici siyasəti: təsir edən amillər və prioritetlər" adlı konfransda demişdir: "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ölkəmizin təhlükəsizliyi ilə bağlı narahatlıq doğuran təxirəsalınmaz məsələ və xarici siyasətimizin bir nömrəli prioriteti hesab olunur. Münaqişənin həllində xalqlar arasında dialoq və əməkdaşlığın, xalq diplomatiyasının roluna toxunan nazir vurğulamışdır: "Azərbaycanın həm Qərb, həm də Şərq mədəniyyətinə məxsus olması ilə bağlı nadir xüsusiyyəti dini məlumatsızlığın və dözümsüzlüyün aradan qaldırılması üçün dinlərarası dialoqda mühüm rol oynamaq üçün imkanlar yaradır. Azərbaycan sivilizasiyalar arasındakı dialoqda fəal iştirak edir və bu məsələyə töhfə verən ilk ölkələr sırasında olmuşdur. Təqdirəlayiq hal kimi qeyd etmək lazımdır ki, ölkəmizin bu istiqamətdə fəaliyyəti Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilir. Habelə beynəlxalq səviyyədə tanınmış elmi tədqiqatçıların və mütəxəssislərin iştirakı ilə Bakıda mədəniyyətlərarası dialoqa dair üç möhtəşəm beynəlxalq tədbir təşkil olunmuşdur."[2]

Yarımfəsildə vurğulanır ki, "Dağlıq Qarabağ sülh prosesində elita və cəmiyyətlərin rolu" konfransında iştirak edən konfliktoloqların ümumi rəyinə görə, həm Azərbaycan, həm Ermənistanda "xalq diplomatiyası"nın

---

[1] Əhmədov E., Ermənistan-Azərbaycan münaqişəsinin beynəlxalq-hüquqi aspektləri, «Strateji təhlil.Beynəlxalq münasibətlər üzrə analitik jurnal (SAM) ».-2011.-№1(2).-S.93-108

[2] Yeni Azərbaycan" qəz. 3 iyul, 2009

tərəfdarları artmaqdadır: "Bununla belə, biz başa düşməliyik ki, "xalq diplomatiyası" ilə problemi həll edə, hakimiyyəti əvəz edə bilmərik".[1]

Qeyd olunur ki, son illərdə isə "Katolik Yardım Cəmiyyəti", "Barışıq Resursları", "Beynəlxalq Həyəcan", habelə "Münaqişələr və Dövlət quruculuğu üzrə London İnformasiya Mərkəzi" (LİNKS) kimi beynəlxalq qeyri-hökumət təşkilatları müxtəlif sosial qrupları təmsil edən insanları ictimai diplomatiya çərçivəsində ünsiyyətə cəlb edərək, siyasi və vətəndaş dialoquna yardım edir, münaqişə ilə məşğul olan inkişaf proqramları və sülh prosesi haqqında cəmiyyətin məlumatlandırılması istiqamətində tədbirlər həyata keçirir.

Yarımfəsildə xüsusilə göstərilir ki, Azərbaycan rəhbərliyi iki ölkə ziyalılarının qarşılıqlı sülhməramlı səfərlərinə razılıq verməklə erməni tərəfinə də, beynəlxalq ictimaiyyətə də bir daha nümayiş etdirir ki, münaqişənin dinc yolla həlli üçün ən son imkandan belə yararlanmağa hazırdır və bunun üçün qarşı tərəfə sülh qapısını son anadək açıq saxlayacaq. Eyni zamanda, erməni tərəfi də, sülh prosesini təşviq edən beynəlxalq dairələr də yəqin bilməlidirlər ki, münaqişənin həllində real irəliləyiş əldə edilmədiyi təqdirdə Azərbaycanın sülhpərəst «açıq qapı» siyasəti də nəhayətsiz ola bilməz və nə vaxtsa həmin «qapı» bağlana bilər. Son nəticədə Azərbaycanın işğal altındakı torpaqlarını güc vasitəsilə azad etmək hüququnu heç kim onun əlindən almayıb. Bu, Azərbaycanın təbii haqqıdır və BMT-nin Nizamnaməsi bizim bu huququ tanıyır."[2]

Yarımfəslin sonunda göstərilir ki, rəsmi danışıqlar prosesində nəzərə çarpacaq dərəcədə uğur əldə olunarsa, xalq diplomatiyası Qarabağ məsələsinin nizamlanmasında əhəmiyyətli rol oynaya bilər və oynamalıdır. Ümumiyyətlə, xalq diplomatiyası xalqların qarşısında duran problemləri zorakılıq tətbiq etmədən sülh yolu ilə həll etmək potensialını artırır. Bu uzunmüddətli bir prosesdir və təsəvvürlərin, eləcə də mövcud vəziyyətə yanaşmanın dəyişməsinə istiqamətlənmişdir. Xalq diplomatiyası istiqamətində səylər nəinki cəmiyyətlərin daxilində, eləcə də onlardan kənarda da, yəni xalqlar arasında, icmalar arasında da həyata keçirilməlidir. Digər münaqişə regionlarındakı təcrübə göstərir ki, xalq diplomatiyası nəinki

---

[1] ACCORD - Liderlik imkanlarının hüdudları: Dağlıq Qarabağ sülh prosesində elita və cəmiyyətlərin rolu . Bakı, 2005

[2] Qarabağın gələcəyi – sülhməramlı təşəbbüslərin gələcəyidir" mövzusunda konfransın materialları, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, 42 səh. Bakı, 2009, iyul.

razılaşma əldə ediləndən əvvəl, eləcə də razılaşma əldə edildiyi zaman və ondan sonra da əhəmiyyətlidir.

Dissertasiyanın **Nəticə** hissəsində isə tədqiqata yekun vurularaq, ümumiləşdirmələr aparılmış, problemin öyrənilməsi prosesində gəlinən son nəticələr təqdim olunmuş, bunların əsasında nəzəri və praktik xarakter daşıyan tövsiyələr irəli sürülmüşdür.

Müəllif belə qənaətə gəlmişdir ki, xalqlar arasında dialoq və əməkdaşlığa, xalq diplomatiyasının roluna böyük önəm verən müasir Azərbaycan Respublikası Ermənistan tərəfinin qeyri-konstruktiv mövqeyinə baxmayaraq hər zaman Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində bu imkanlardan maksimum yararlanmaq üçün cəhdlər edir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin nəşr olunmuş aşağıdakı elmi işlərində öz əksini tapmışdır:**

1. Azərbaycanın xarici siyasətində iqtisadi inkişaf amili // DİA-da “Müasir dövlət idarəçiliyinin nəzəri və praktik problemləri” mövzusunda tələbə elmi işlərinə dair konfransın tezisləri, 17 may, Bakı, 2002, s. 93-94
2. Pablik Rileyşnz fəaliyyəti və idarəçilik // “525-ci qəzet”, 30 sentyabr 2003-cü il, s. 4
3. İctimaiyyətlə əlaqələr: Avropa təcrübəsi və Azərbaycan reallığı // Bakı Slavyan Universitetində Azərbaycan Respublikasının Müstəqillik Gününə həsr olunmuş II Respublika Tələbə Elmi –Praktik Konfransının materialları, 14-15 noyabr, 2003-cü il, Bakı, “Kitab aləmi” nəşriyyat mərkəzi, s. 106-107
4. Demokratik cəmiyyət və ictimai əlaqələr // “Xalq” qəzeti, 24 aprel 2004-cü il, s. 5
5. Heydər Əliyev: Azərbaycançılıq və milli-mənəvi dəyərlər // Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyi, “Milli-mədəni irsimiz ən qiymətli sərvətimizdir” elmi-praktik konfransda dinlənilən məruzələr, Bakı, 2004, s. 114-115
6. Pablik Rileyşnz və ya ictimaiyyətlə əlaqələr strateji idarəçilik fəaliyyətidir // “Qanun” jurnalı. Bakı, 2008, № 11, s. 131-136
7. Azərbaycanın xarici siyasətində ictimaiyyətlə əlaqələr// DİA-da keçirilən “Heydər Əliyevin elmi əsaslara söykənən dövlətçilik konsepsiyası” mövzusunda aspirant və dissertantların elmi konfransının materialları, Bakı: Mütərcim, 2009, s.60-65
8. “Heydər Əliyev və Azərbaycan diplomatiyası”// DİA-da keçirilən “Heydər Əliyev və Azərbaycanda dövlət idarəçilik məsələləri” mövzusunda aspirant və dissertantların elmi konfransının materialları, Bakı: Mütərcim, 2010. s.3-9
9. Beynəlxalq ictimai əlaqələr xalq diplomatiyası vasitəsi kimi // “Dirçəliş XXI əsr” jurnalı, 2011, № 153-154, s. 160-165
10. “Azərbaycan xalq diplomatiyası”// DİA-da keçirilən “Heydər Əliyevin Azərbaycanda demokratik, hüquqi dövlət quruculuğu strategiyası” mövzusunda aspirant və dissertantların elmi konfransının materialları, Bakı: Mütərcim, 2011. s. 3-8.
11. Azərbaycanın xarici siyasətində ictimai diplomatiya elementləri// “Strateji Təhlil” jurnalı, Say 3, Bakı, Noyabr, 2011, s. 93-107, Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi
12. Политический Паблик Рилейшнз: взгляды, перспективы // “Журнал Межкультурные коммуникации”. Тбилиси-2012., № 19, стр. 136-140.

13. Searching for a new foreign policy strategy for Azerbaijan: Public Diplomacy Efforts" // European Scientific Journal, December, 2013, Special Edition,Vol.2, University of the Azores, Portugal, p. 222-233,

14. Mədəniyyətlərarası dialoq və diaspor fəaliyyəti - ictimai diplomatiya vasitəsi kimi // Dövlət İdarəçiliyi: nəzəriyyə və təcrübə, 2015 (çapa təqdim olunub)

15. Azərbaycan Respublikasının xarici siyasətində mədəniyyət diplomatiyası, Sivilizasiya jurnalı, Avrasiya Universiteti. 2015, N 5 (çapa göndərilib)

16. Armenian terrorism, tərcümə (ing. dilindən) Bakı, "Sabah" 2005, 103 s.

17. Beynəlxalq münasibətlər və Pablik Rileyşnz. Bakı, "Qanun nəşriyyatı", 2007, 90 s.

Рашад Фиридун оглу Агазаде

# Роль общественных связей и народной дипломатии во внешней политике Азербайджана

## Резюме

В диссертационной работе с точки зрения внешней политики современного Азербайджана анализируются общественные связи и народная дипломатия, исследуется влияние диаспорской деятельности и межкультурных связей на международный мирный процесс.

Диссертационная работа состоит из введения, двух глав, 6 параграфов, заключения и списка использованной литературы.

Во Введении обосновывается актуальность темы, изучается степень разработанности проблемы, определяются объект и предмет, цель и задачи исследования, его теоретико-методологические основы и научная новизна, а также теоретико-практическое значение диссертации.

В первой главе - «Международные общественные связи как средство общественной дипломатии» раскрывается сущность понятия «общественных связей», изучается ее история и использования во внешней политике, исследуется роль PR и информации в международных отношениях, приводятся примеры применения общественной дипломатии во внешней политике.

Вторая глава посвяшена исследованию применение народной дипломатии во внешней политике независимого Азербайджана. Здесь указывается, что продуманное преподнесение политической позиции государства на международном уровне создает благоприятную почву для решения политических вопросов. При этом особое место отводится изучению возможностей азербайджанской народной дипломатии в урегулировании армяно-азербайджанского нагорно-карабахского конфликта.

В Заключении подведены итоги исследования, проведены обобщения, сформулированы рекомендации, носящие теоретический и практический характер. Автор также приходит к выводу что, Азербайджанская Республика, во внешней политике которой большое значение придается роли диалога между народами, несмотря на противодействия и неконструктивную позицию Армении, стремится использовать возможности народной дипломатии в урегулировании армяно-азербайджанского, нагорно-карабахского конфликта.

Rashad Firidun oglu Agazade

# The role of public relations and public diplomacy in foreign policy of Azerbaijan

## Summary

In this thesis in terms of modern Azerbaijan's foreign policy are analyzed public relations and public diplomacy, are examined the influence of diaspora activities and intercultural relations in the international peace process.

The thesis consists of an introduction, two chapters, 6 paragraphs, conclusion and bibliography.

In the Introduction the relevance of work is proved, the degree of elaboration of the problem is studied, are defined the object and the subject, the purpose and objectives of research, its theoretical and methodological foundations, scientific innovation as well as theoretical and practical significance of the thesis.

In the first chapter, entitled “International Public Relations as a tool of Public Diplomacy” is given the essence of concept of "public relations", studied the history of its occurrence and usage in foreign policy, examined the role of PR and information in international relations and produced examples of the use of public diplomacy in foreign policy.

The second chapter is dedicated to study the application of Public Diplomacy in foreign policy of independent Azeraijan. In this chapter it is underlined that correctly and reasonably presenting the political position of the state at the international level create favorable circumstances for solution of the political and economic problems. And here with special emphasise are investigated the opportunities of Azerbaijan’s public diplomacy in in resolving the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict.

In Conclusion the researcher makes valuable proposals, summing up the gained experience in this field, puts forward the results he reached in the course of problem studying with recommendations having theoretical and practical character.

The author has also come to the conclusion that the Republic of Azerbaijan attaching great importance to the role of dialogue among nations in foreign policy, despite the opposition and unconstructive position of Armenia, seeks to take advantage of public diplomacy in settlement of the Armenian-Azerbaijani Nagorno-Karabakh conflict.

Kağız formatı 60x84 1/16. Tiraj 100.

DİA-nın nəşriyyatı

**АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ
ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

*На правах рукописи*

**РАШАД ФИРИДУН ОГЛУ АГАЗАДЕ**

# РОЛЬ ОБЩЕСТВЕННЫХ СВЯЗЕЙ И НАРОДНОЙ ДИПЛОМАТИИ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ АЗЕРБАЙДЖАНА

**Специальность: 5901.01-«Международные отношения»**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по политическим наукам

**БАКУ – 2015**